AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2021, № 2 (268), 97-104

**D İ L Ç İ L İ K: Q R A M M A T İ K A**

# Arxaizmlərin leksik-semantik xüsusiyyətləri

***Sofiya Mirzəyeva***
Filologiya üzrə fəlsəfə doktoru, dosent. Azərbaycan Dillər Universiteti, Azərbaycan dilçiliyi kafedrası. Azərbaycan. E-mail: sofiyamirzeyeva@gmail.com
https://orcid.org/0000-0002-7396-6039

**XÜLASƏ**
Dil ictimai hadisə olduğu üçün bütün tarixi hadisələr, cəmiyyətdəki dəyişikliklər onda əks olunur. Dilin lüğət tərkibində xalqın tarixi təzahür edir. Sözlər elmdə, texnikada, mədəniyyətdə baş verən dəyişikliklərin, tarixi hadisələrin canlı şahidləridir. Zaman keçdikcə bəzi məfhumlar dəyişib yox olur, onları bildirən sözlər isə köhnələrək öz ümumişlək xüsusiyyətini itirir. Bu cür sözlər **köhnəlmiş sözlər** adlanır. Dövlət quruluşları, ictimai-siyasi funksiyalar, insanların həyat və yaşayış şəraiti dəyişdikcə, elm və texnikanın inkişafı, dilin özünün inkişaf etməsi və zənginləşməsi ilə əlaqədar olaraq sözlərin köhnəlməsi ilə də arxaizmlər yaranır.

**AÇAR SÖZLƏR**
Azərbaycan dili,
köhnəlmiş sözlər,
arxaizmlər,
tarixizmlər,
leksik-semantik,
ümumişlək

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib: 12.05.2021
qəbul edilib: 18.05.2021

**MƏQALƏNİ ÇAPA MƏSLƏHƏT BİLƏN**
Filologiya elmləri doktoru,
professor İsmayıl Kazımov.

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2021, NO.2, VOL. 268, 97-104

**L I N G U I S T I C S: G R A M M A R**

# Lexic-semantic characteristics of archaisms

***Mirzoyeva Sofiya***
Doctor of Philosophy in Philology, Associate Professor. Azerbaijan University of Languages, Department of Azerbaijani Linguistics. Azerbaijan.
E-mail: sofiyamirzeyeva@gmail.com

**ABSTRACT**
Because language is a social phenomenon, historical events and changes in society are reflected in language. The dictionary of the language reflects the history of the people. Words are living witnesses of changes in science, technology, culture and historical events. Over time, some concepts change, disappear, and words that express such concepts lose their generality, and such words are also called obsolete words. As state structures, socio-political functions, people's lives and way of life change, archaisms arise in connection with the development of science and technology, the obsolescence of words in connection with the development and enrichment of the language itself.

**KEYWORDS**
poet, poem, creativity,lesson, interactive teaching method, analysis, in general

**ARTICLE HISTORY**
Received: 12.05.2021
Accepted: 18.05.2021

## Giriş / Introduction

Azərbaycan dili Azərbaycan xalqının ana dili, Respublikamızın dövlət dilidir. O, dünyaca ən şirin, rəvan, bütün fikirləri ifadə edən əlverişli dillərdən biridir. Kembric Universitetinin araşdırmalarına görə, Azərbaycan dili dünyanın ən çox danışılan dilləri sırasında 21-ci yerdədir. Əlli milyona yaxın insanın istifadə etdiyi bu dil zənginliyi ilə həmişə diqqət cəlb etmişdir.

Dünya elmi və zəka aləmində ən çox danışılan sahə dil problemidir. Dil millətin var olmasını şərtləndirən əsas amillərdən biridir. Yunan alimi Aristotel (e.ə. 384-322) 2 min il bundan əvvəl deyirdi ki, insanı başqa canlılardan fərqləndirən onun dilidir. İnsan övladı dillə formalaşmış, yüksək zirvə məqamına məhz dili vasitəsilə çata bilmişdir. "İnsan" sözü ünsiyyət saxlayan deməkdir. Bu isə yalnız dillə mümkün olur [1, s.7].

Hər bir xalqın iqtisadi qüdrəti, dünyagörüşü, ətrafa təsir gücü nə qədər çox olarsa, onun dilinin yayılması üçün də münasib şərait yaranar. Hər bir dil açıq, yaradıcı olmaqla yanaşı, həm də özünü idarə edən sistemdir. Xalqımız, ziyalı təbəqə, mütəxəssis alimlər hər zaman dilimizin var olmasına, yaşayıb inkişaf etməsinə, möhkəmlənməsinə həssaslıqla yanaşmışlar [8, s.203].

Dil ictimai hadisə olduğu üçün bütün tarixi hadisələr, cəmiyyətdəki dəyişikliklər onda əks olunur. Zamanla bəzi məfhumlar dəyişib yox olur, onları bildirən sözlər isə köhnələrək öz ümumişlək xüsusiyyətini itirir. Bu cür sözlər **köhnəlmiş sözlər** adlanır. Arxaizmlər yunan dilindən tərcümədə (archalos) "qədim" mənasını verən "archaşcos" sözündən əmələ gəlmişdir. "Arxaik" sözü mənşəcə yunan dilində "arxaios" (ilk, ən qədim) və "ikos" şəkilçisindən törəmişdir. Əslində, dilçilikdə arxaizmlər neologizmlərin antonimi olaraq qəbul edilə bilər. Dilin lüğət tərkibi daim dinamik və inkişafdadır. Sözlərin ümumişləklik xüsusiyyətinin itirilməsinin də bir sıra səbəbləri mövcuddur. Dövlət quruluşları, ictimai-siyasi funksiyalar dəyişib bir-birini əvəz etdikcə, onlarla bağlı sözlər də köhnəlir və sıradan çıxır. Məsələn: *darğa, töycü, dinar, koxa, kətxuda, dirhərn, katta, şahı* və s. İnsanların həyat və yaşayışı dəyişdikcə; Məsələn: *arxalıq, təhnə, daqqal batman, çuxa, börk, əba, çarıq, xurcun* və s. Elm və texnikanın inkişafı ilə əlaqədar olaraq; Məsələn: *xış, mirab, mac, vəl, cu var, hodaq, qazalaq* və s. Dilin özünün inkişaf etməsi və zənginləşməsi ilə əlaqədar sözlərin köhnəlməsi də arxaizmlərin yaranmasının növbəti səbəbidir. Məsələn: *sayru (xəstə), güz (payız), gəz (dəfə), ün (səs), pitik (yazı), əsrük (sərxoş), uçmaq (cənnət), ayıtmaq (demək, söyləmək), alp*

*(cəsur), suç (günah), tanıq (şahid), yağmalamaq (talamaq), yazı (çöl, düz) görklü (gözəl), us (ağıl), damu (cəhənnəm)* və s.

Ümumiyyətlə, dildəki yeni sözlərin sayı dilin fəal fondundan çıxan sözlərin sayından həmişə çox olur. Elmi-texniki tərəqqinin sürətlə inkişaf etdiyi müasir dövrümüzdə neologizmlərin əmələ gəlməsi və dildaxili aktivləşməsi prosesi olduqca aktualdır. Bunun əksi olan dildəki sözlərin arxaikləşməsi isə nisbətən ləng prosesdir. Bəzi sözlər müəyyən dövrdə fəal işlənir, lakin bir müddətdən sonra bu sözlərin istifadə dairəsi daralır, bəzən yeni məna kəsb edərək dilin lüğət fondunda yenidən fəallığını bərpa edir. Məsələn, Azərbaycan dilində "ismarıc" sözü əvvəlcə "xəbər, tapşırıq" mənasında fəal işlədildiyi halda, XX əsrin II yarısından etibarən bu sözdən daha az istifadə edilmişdir. XXI əsrin əvvəllərindən başlayaraq yenə də "ismarıc" sözünün işlənmə dairəsi genişlənmiş və söz "mesaj" sözü ilə yaxın mənada işlədilməyə başlamışdır. Son illərdə isə bu söz dilin aktiv fonduna daxil olsa da, işlənmə fəallığının nisbətən azalması müşahidə olunmaqdadır. Ümumiyyətlə, dilin lüğət fondu fəal və qeyri-fəal lüğət fondu olmaqla iki yerə ayrılır. Dilin fəal lüğət fondu mənası hamı tərəfindən başa düşülən ümumişlək sözlərdir. Dilin qeyri-fəal lüğət fondu dedikdə isə, köhnəlmiş sözlər və neologizmlər nəzərdə tutulur ki, bunların da dildə passivliyi başa düşüləndir. Dildəki köhnəlmiş sözlərin özləri də iki qrupa ayrılır ki, bunlara da arxaizm və tarixizmlər aid edilməkdədir [4, s.63].

Yuxarıda söylədiklərimizə nümunələr əsasında aydınlıq gətirək: *Arxaizm* deyəndə bu gün dildə işlənməyən, lakin əvəzində onların mənasını verən sözlər nəzərdə tutulur. Yəni məna qalır, onu ifadə edən söz dəyişir. Məsələn: *ayıtmaq (demək), əsən (sağ, salamat), uçmaq (cənnət), ayaq (qədəh), nəsnə (əşya), us (ağıl)* və s.

Dövlət quruluşunun dəyişməsi, əmək prosesinin təkmilləşməsi ilə əlaqədar yaranan sözlər isə *tarixizmlər* adlanır. Tarixizmlərdə anlayışla yanaşı, onu ifadə edən söz də köhnəlir. Məsələn: *xan, töycü, sovet, mülkədar, qlava, hampa, bolşevik, katta, menşevik, darğa, dinar* və s.

Köhnəlmiş sözlərin bəziləri bu gün dialektlərdə də işlənir. Belə sözlər vaxtilə ədəbi dildə işlənib, sonra dildən çıxdığına görə həm köhnəlmiş sözlər, indi ədəbi dildə yox, ayrı-ayrı dialektlərdə yaşadığına görə həm də dialekt sözlər adlanır. Məsələn: *hancarı (necə), duş (yuxu), əsrük (sərxoş), anarı (o tərəf), becid (tez-tələsik)* və s. "*Becid*" sözü bu gün Bakı dialektində, qalan sözlər isə Qazax-Borçalı bölgəsində fəal işlənir.

Tədqiqatçı-alim B.Hacıyeva arxaizmlərin üç başlıq altında qruplaşdırılması yanaşmasını daha doğru hesab edir. Çünki bu arxaik səslər, arxaik qrammatika və

arxaik sözlər olmaq etibarilə üç bölgüdə özünü daha çox göstərir. Arxaik səslər dedikdə, türk dilində ən çox **b-m** dəyişmələri, **sağır N** (nun) səsi, **k-g** dəyişmələri göstərilə bilər:

| **Qədim türk dilində** | **Müasir türk dillərində** |
|---|---|
| Men, min, binzz<br>gönül<br>anrı<br>Tanrı | Ben, mən<br>gönül, könül<br>anrı<br>Tanrı |

Arxaik şəkilçilər dedikdə aşağıdakı şəkilçiləri nümunə göstərə bilərik:
İban, üban → görüben, kalkuban, deyüben; -alu² → (feili bağlama şəkilçisi) – müasir variant -alı² şəklində bu gün də türk dilində feili bağlama şəkilçisi olaraq işlədilməkdədir. Zaman mənasını ifadə edən bu şəkilçilər kifayət qədər məhsuldardırlar. Məsələn, Universiteye kabul olalı iki yıl olmuştu artık; Ders başlayalı zil on beş dakikadır, sınıfa dahil olmamız doğru olmaz. Amma Azərbaycan dilində şəkilçi fəallığını itirmiş, arxaikləşmişdir. Türkiyəli tədqiqatçı Elnaz Maleki “Hayran xanım Dünbuli`nin Türkçe şiirlerinde arxaizmlər” adlı məqaləsində şairənin türkcə şeirlərində “göstər” sözünün arxaik olaraq “görset” şəklində işlənməsini aşağıdakı nümunələrlə belə izah etmişdir:

Hali-i lebüvi **görset** ona dane keyfi dinsün,
**Görsedip** arizini, alemi pür nür kılıp…
[6, s.57]

Professor T.Əfəndiyeva “Azərbaycan dilinin leksik üslubiyyatı” əsərində yazır ki, arxaizmlər fəal iştirakdan məhrum olmuş, dilin aktiv fondundan passiv fonduna keçmiş sözlərdir. Müəllif haqlı olaraq qeyd edir ki, arxaizmlər olduqca geniş məfhumdur. Leksik-semantik arxaizmlərin izah edilməsi prosesində “arxaizmlər” termini yerinə daha dar mənanı ifadə edən “arxaik sözlər” termininin işlədilməsi daha məqsədəuyğundur. Arxaikləşmə prosesi dildə tədricən baş verən mürəkkəb və

uzunmüddətli prosesdir [3, s.227]. Sözün lüğətin aktiv fondundan passiv fonduna keçməsi nəticəsində onun mənası bəzən cəmiyyətdəki insanların yaşlı təbəqəsi üçün anlaşılan, lakin gənc nəsil üçün aktivliyini itirməsi səbəbindən anlaşılmaz olur. Bəzən sözlər zamanla yeni mənalar kəsb edir. Məsələn, bu gün türk dilində aktiv şəkildə işlənən yunan mənşəli "efendim" sözü, vaxtilə Osmanlı sarayında müəyyən "rütbə", "titul" mənasını ifadə edirdi. XIX əsrdə bu söz müraciət forması olaraq şahzadələrə, din xadimlərinə, xarici vətəndaşlara və müsəlman olmayanlara, eyni zamanda mülki şəxslərə müraciət forması olaraq işlədilirdi və dövlət məmurlarının rütbəsinin tərkib hissəsi olaraq "Paşa" və "Bəy" titullarının ortasında yer alırdı. Lakin 1934-cü ildə Türkiyə Respublikasında rütbələrin və köhnə müraciət formalarının ləğvindən sonra "efendi" sözünün rəsmi müraciət forması kimi işlədilməsinə son qoyulmuşdur [7, s.80]. Deməli, "efendi" sözü tarixizm kimi getdikcə sıradan çıxmış, amma yeni mənalarda işlədilərək arxaikləşməmişdir. Bu söz müraciət forması kimi danışıq zamanı işlədilir və situativ olaraq müxtəlif mənalar qazanır [7, s.80]. Aşağıdakı nümunələrdə fikrimiz daha da aydınlaşır:

1) "Muhammed!" – Efendim! (verilmiş nümunədə "efendim" sözü "buradayam" mənasını verir.

2) "Hangi hastanenin doktorusunuz?" "Efendim?" (Bu situasiyada "efendim" sözü "zəhmət olmasa, eşitmədim, sualı təkrar edərsiniz" mənasında işlədilir).

3) Oldukça hanım efendi bir kadındı (Bu nümunədə isə "efendi" sözü "çox mədəni, kübar" mənasında işlədilmişdir). Göründüyü kimi, tarixizm kimi passiv lüğət fonduna daxil olan "efendim" sözü yeni mənaları ilə aktiv lüğət fonduna daxil ola bilmişdir. Professor Ə.Dəmirçizadə haqlı olaraq qeyd edir: "Arxaik sözlərin hamısı eyni aqibətli olmur. Bunlardan bəzisi tamamilə unudulur, bəzisi məhdud dairədə – dialekt, şivə sözlərinə çevrilərək yaşayır, bəzisi isə başqa bir dilə keçir, əsil mənsubiyyət olan dil üçün arxaikləşmiş olur, nəhayət, bəzisi yenidən işlək söz hüququ kəsb etmiş olur" [2, s.99].

İctimai hadisə olan dilin leksik vahidləri də sosial sifarişlidir. O, cəmiyyətlə birlikdə yaşayır və inkişaf edir. İctimai-siyasi, iqtisadi əlaqələrin dəyişməsi, elm, texnika və mədəniyyət sahəsində arasıkəsilməyən yeniliklərin yaranması ilə əlaqədar dilin lüğət tərkibində daima bir dəyişmə, artma və zənginləşmə prosesi gedir. Dilin lüğət tərkibinə yeni-yeni sözlər daxil olduğu kimi, bunun əksi də baş verir. İctimai mühitin dəyişməsi ilə əlaqədar olaraq, bir qisim sözlər dilin lüğət tərkibindən, hətta lüğət fondundan çıxır. Lüğət tərkibindən çıxan sözlərin bəziləri uzun müddət lüğət tərkibində qala da bilir, lakin bəziləri ədəbi dilin lüğət fondundan çıxsa da, regional müstəvidə, bir qismi isə müxtəlif sözlərin və ifadələrin tərkibində öz izlərini qoruyub

saxlayırlar. Məs.: *yazı (çöl) – Qarayazı; küz (payız) – Güzdək; varmaq (getmək) – var-gəl etmək; al (hiylə) aldatmaq; arı (təmiz) – arıtlamaq; dəli (igid, cəsur, qoçaq) – dəliqanlı* və s. "Orxon- Yenisey" abidələrində, "Kitabi-Dədə Qorqud"da, klassik poeziyamızda, folklor ədəbiyyatımızda aktiv işlənmə tezliyinə malik olan, lakin müasir ədəbi dilimiz üçün arxaikləşən bir sıra leksik və qrammatik vahidlərin müəyyən fonetik dəyişikliklərə uğrayaraq, ya da eyni fonetik tərkibdə dialekt və şivə çərçivəsində fəaliyyətini əks etdirən bəzi faktları nəzərdən keçirək: "Orxon-Yenisey" abidələrində müşahidə edilən yağız (qonur) leksik vahidi qərb dialektində işlənmə tezliyi baxımından üstün mövqedədir. Qədim və müasir türk dilində aktiv əsli sifətlərdəndir. Qərb qrupu dialektində müstəqil leksik vahid kimi yox, daha çox "qarayağız" (qaraya çalan, qarabəniz), "sarıyağız" (sarışın, sarıbəniz) ifadələrində öz işləkliyini, semantikasını qoruyub saxlayır. Uyğur yazılı abidələrində nəzərə çarpan tavrağ (cəld) əsli sifəti yenə də qərb qrupu dialektində, xüsusən Tovuz dialektində səs tərkibi ilə aktiv işlənmə tezliyinə malikdir. "Kitabi-Dədə Qorqud" dastanında, eləcə də klassik ədəbiyyatımızda üstün mövqeyə malik olan, lakin müasir ədəbi dilimiz üçün arxaikləşən leksik vahidlərdən biri də **"us"** ifadəsidir:

Əhli-iman **us**ləri ol dəmdə inkar etdilər,
Çün Hüseyniyi Hələb şəhrində bər-dar etdilər
[İ.Nəsimi].

Sözün kökü us (ağıl) ismidir. Beytdə də "ağıl" mənasında işlədilmişdir. Us leksik vahidi dialekt və şivələrdə (Qərb qrupu dialektində) "sakit, ehmallı, ehtiyatlı, farağat, ədəb-ərkanlı" anlamlarında olan usduflu, usdufca, usulluca kimi sözlərin yaranmasında baza rolunu oynamışdır. Bu sözlər Qərb qrupu dialektində olduqca aktiv işlənmə tezliyinə malikdir: Usdufca otur, heç nəyə toxunma. Yazılı abidələrimizin dilində işlək olan **"al"** leksik vahidi də maraq doğurur:

Dünya duracaq yer deyil, ey can, səfər eylə,
Aldanma anın **al**ına, andan həzər eylə [İ.Nəsimi].
[5, s.181].

## Nəticə / Conclusion

Verdiyimiz nümunələrdə müasir Azərbaycan ədəbi dili ilə müqayisədə bir sıra fonetik, leksik arxaikləşmənin izlərini gördük. O da məlum oldu ki, bu cür vahidlər müasir dilin aktiv lüğət fondundan çıxsa da, dialekt və şivələrdə öz izlərini saxlamaqdadır. Diaxronik aspektdə aparılan araşdırmalar dil vahidlərinin inkişaf tarixi, dilin lüğət tərkibinin passiv fonduna keçməsinin səbəbləri haqqında daha dolğun məlumatlar verməyə imkan yaradır.

## İstifadə edilmiş ədəbiyyat / References


1. Babayev A. (2019). Milli varlığımızın tək amili olan dilimizi qoruyaq. 21 fevral – Beynəlxalq Ana Dili Günü münasibətilə "Dilimiz milli-mənəvi sərvətimizdir" mövzusunda konfransın materialları. Bakı, "Nurlar" nəşriyyat-poliqrafiya mərkəzi. s.7-9.
2. Dəmirçizadə Ə. (1962). "Azərbaycan dilinin üslubiyyatı". Bakı, "Azərtədrisnəşr". 268 s.
3. Əfəndiyeva T. (1980). Azərbaycan dilinin leksik üslubiyyatı. Bakı, "Elm" nəşriyyatı. 249 s.
4. Hacıyeva B. (2019). Türk dilinin leksik-semantik inkişaf sistemində arxaik sözlərin formalaşması. Tanınmış türkoloq-alim Məhəbbət Mirzəliyevanın 70 illik yubileyinə həsr olunmuş "Azərbaycan dilçiliyinin aktual problemləri" mövzusunda respublika elmi konfransının materialları. 28 oktyabr, s.63-68.
5. Hümmətova R. (2019). Qədim sözlərin dialektlərdə izləri. Tanınmış türkoloq-alim Məhəbbət Mirzəliyevanın 70 illik yubileyinə həsr olunmuş "Azərbaycan dilçiliyinin aktual problemləri" mövzusunda respublika elmi konfransının materialları. 28 oktyabr, s.181-185.
6. Maleki E. (2016). Hayran Hanım Dünbüli`nin Türkçe şiirlerinde arkaizmler. "Türk Dünyası", Dil ve Edebiyat dergisi. s.49-61.
7. Rəsulov Ə., Rüstəmov R.Ə. (2007). Türk dili. Bakı, Bakı Dövlət Universiteti Nəşriyyatı. 308 s.
8. Səfərli A. (2019). Azərbaycan dilçiliyinin Bəkir Çobanzadə mərhələsi 21 fevral – Beynəlxalq Ana Dili Günü münasibətilə "Dilimiz milli-mənəvi sərvətimizdir" mövzusunda konfransın materialları. Bakı, "Nurlar" nəşriyyat-poliqrafiya mərkəzi. s.203-215.